1_Layout 1 28.12.2022 18:58 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 25 (639)

30 dekabr 2022-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ STRATEJİ HƏDƏFDİR

## Gündəlikdəki növbəti tarixi məsələ budur

**"Azərbaycan" qəzetinin müxbiri Yasəmən Musayevanın müəllifi olduğu "Qərbi Azərbaycana qayıdış strateji hədəfdir" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**

"Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar".

Prezident İlham Əliyevin dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü zamanı qətiyyətlə vurğuladığı kimi, vaxtilə yurdundan deportasiya edilən yüzminlərlə Qərbi Azərbaycandan olan soydaşımız da tarixi torpaqlarına qovuşacaqlar.

Vətən müharibəsində parlaq qələbə qazanaraq Qarabağa və Şərqi Zəngəzura Böyük qayıdışı qətiyyətlə gerçəkləşdirən Azərbaycan dövlətinin növbəti tarixi hədəfi qərbi azərbaycanlıların pozulan hüquqlarını bərpa edərək onları əzəli yurdlarına qaytarmaqdır.



### Tariximizin qara səhifələri

Tarixi mənbələrdən də aydın göründüyü kimi, erməni millətçiləri "dənizdən-dənizə" böyük imperiya xülyasına qapılaraq XIX-XX əsrlər boyu Azərbaycan xalqına qarşı etnik təmizləmə, soyqırımı siyasəti yürüdüblər. Mərhələli şəkildə həyata keçirilən məkrli plan nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - tarixi torpaqlarından qovulublar, kütləvi qətl və qırğınlara məruz qalıblar.



Xalqımızın taleyində faciəvi rol oynamış tarixi faktlardan biri 1918-ci ildə təzə yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin qərarı ilə tarixi şəhərimiz - İrəvanın Ermənistana bağışlanması olub. Bundan sonra erməni millətçiləri daha da iştahlanaraq min bir fitnə-fəsadla tarixi Azərbaycan ərazilərinə ard-arda yiyələnməyə başlayıblar, 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını da sovet hakimiyyətinin köməyi ilə Ermənistana birləşdirməyə nail olublar.

Amma bu da xalqımıza, qərbi azərbaycanlılara qarşı törədilən faciələrin sonu olmayıb. 1948-1953-cü illərdə sovet hökumətinin xalqımıza qarşı növbəti cinayətinin nəticəsi olaraq qərbi azərbaycanlılar növbəti deportasiyaya məruz qalıblar.

1980-ci illərin sonlarında Ulu Öndər Heydər Əliyevin hakimiyyətdən getməsindən istifadə edən həm erməni millətçiləri, həm də onların sovet hökumətindəki havadarları azərbaycanlılara qarşı həyata keçirdikləri sistemli cinayətləri davam etdiriblər. Ümummilli Lider Heydər Əliyev 1987-ci ilin noyabrında bütün vəzifələrdən uzaqlaşdırılandan iki həftə sonra erməni millətçiləri baş qaldıraraq və sovet hökumətinin dəstəyini alaraq, həm Qarabağda, həm də Ermənistan SSR-də xalqımıza qarşı növbəti cinayətə başlayıblar. Azərbaycanlılar tarixi diyarları Qərbi Azərbaycandan deportasiya ediliblər.

Növbəti cinayət ünvanı kimi özlərinə Qarabağı və Şərqi Zəngəzuru hədəf seçən Ermənistan o vaxt Azərbaycanda hakimiyyətdə olan antimilli qüvvələrin xəyanətkar siyasətindən yararlanaraq bu tarixi torpaqlarımızı da işğal etmişdilər, daha yüzminlərlə azərbaycanlını məcburi köçkünə çevirmişdilər.

### Ermənilər özlərinə saxta tarix uydurublar

Ermənilər tarixin müxtəlif dönəmlərində qəsb etdikləri Azərbaycan torpaqlarında maddi-mədəni irsimizə qarşı da soyqırımı siyasəti həyata keçiriblər, o cümlədən də Qərbi Azərbaycanda. Əzəli torpaqlarımız İrəvana, Zəngəzura, Göyçə mahalına zorla yiyələnən ermənilər özlərinə saxta tarix quraşdırmaq üçün, ilk növbədə, o ərazilərdəki qədim toponimlərimizə hücum ediblər. Yer adlarımızı dəyişdirib uydurma erməni adları qoyublar, türk dilində mövcud olan yer adlarını erməniceyə çeviriblər.

Lakin Qarabağ və Şərqi Zəngəzurda olduğu kimi, toponimlərimizin, yer adlarımızın hələ də erməni nəzarəti altında olduğu qədim türk-oğuz yurdu Qərbi Azərbaycanda da saxta erməni adları tarixdən birdəfəlik silinəcək, öz əvvəlki, min illərdir var olan adları ilə çağırılacaq.

Vətən müharibəsindən sonra işğaldan azad olunan Kəlbəcər və Laçına səfər edən Prezident İlham Əliyev bu məsələ ilə bağlı bildirmişdi ki, indiki Ermənistan ərazisində yerləşən bütün qədim Azərbaycan yaşayış məntəqələri əsl adları ilə çağırılmalıdır: "Misal üçün, Naxçıvan-Ermənistan sərhədində mövcud olan gərginliklə bağlı mən indi mətbuatı izləyirəm. Bizim mətbuatda yazılıb ki, Ermənistanın "Yerasx" kəndində, onun ətrafında hansı hadisələr baş verir. Bu kəndin adı Arazdəyəndir və azərbaycanlılar deportasiyaya qədər orada əbədi yaşayıblar. Ona görə bütün qədim, yəni tarixi adlar bərpa edilməlidir. Bu adlar bizdə müxtəlif kitablarda da öz əksini tapıb. Ona görə xahiş edirəm ki, həm jurnalistlər, həm, ümumiyyətlə, insanlarımız bu yerlərin əsl adlarını çəksinlər - Vardenis yox, Basarkeçər rayonu, Basarkeçər şəhəri".

### Qərbi Azərbaycana Qayıdış Konsepsiyası hazırlanacaq

XX əsrdə qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalan qərbi azərbaycanlıların pozulan hüquqları bərpa ediləcək və onlar öz doğma torpaqlarına qayıdacaqlar.

Dekabrın 24-də, öz ad günündə Qərbi Azərbaycan İcmasının inzibati binasını açaraq qərbi azərbaycanlılara böyük hədiyyəsini təqdim edən Prezident İlham Əliyev bu nəcib hərəkəti ilə həmin soydaşlarımıza, bütün Azərbaycan xalqına daha bir xoş ismarış verdi. Dövlət başçısı əvvəllər Qarabağın azərbaycanlı icmasına məxsus binanı qərbi azərbaycanlılara hədiyyə etməklə, həm də bu soydaşlarımızın da tezliklə tarixi torpaqlarına qaytarılacağına rəmzi işarə vurdu.

"...Hesab edirəm ki, biz birgə səylərlə Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını da işləməliyik. Qarabağ münaqişəsi həll olunandan sonra indi bizim gündəliyimizdə duran məsələ budur", - deyə qərbi azərbaycanlı ziyalılarla görüşü zamanı Prezident İlham Əliyev bir daha vurğuladı: "Əlbəttə ki, Qarabağ münaqişəsi həll olunmayana qədər bu haqda danışmaq, bəlkə də, tez idi. Ancaq məncə, bu gün biz vaxt itirməməliyik. Qayıdış Konsepsiyası hazırlanmalıdır".

### Böyük Zəfər tarixi ərazilərimizə dönüşə zəmin yaradıb

Tarixi ərazilərimizə qayıdışın gerçəkləşəcəyinin əminliyini isə bizdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruq" sayəsində qazandığı parlaq Zəfər yaradıb.

Bu əminliyi bizdə 30 il ərzində erməni vandallarının viranəyə çevirdiyi Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa, quruculuq işləri, o yerlərə doğma sakinlərinin qayıdışı yaradıb.

O gün də uzaqda deyil ki, Qərbi Azərbaycandan olan soydaşlarımız da zorla qovulduqları, əcdadlarımızın min illər boyu yaşam sürdürdükləri dədə-baba yurdlarına qayıdacaqlar, illərlə çəkdikləri torpaq həsrətləri bitəcək.

Qərbi Azərbaycanda da erməni vandallığına məruz qalan tarixi, mədəni, dini irsimiz düşməndən qurtulacaq, onlar yenidən bərpa ediləcək, saxta adlar qoyulmuş yurd yerlərimiz, şəhərlərimiz, kəndlərimiz əsl türk adlarına yenidən qovuşdurulacaqlar.

# Nazir V.Eyvazov Xaçmazda vətəndaş qəbulu və sıra baxışı keçirib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov Xaçmaz Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Daxili işlər naziri əvvəlcə şəhərin mərkəzindəki Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Rayon Polis Şöbəsinin inzibati binasında Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən və Xızı rayonlarından qəbula gələn 143 nəfər vətəndaşı dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb.

Ölkə rəhbərinin apardığı məqsədyönlü siyasət nəticəsində qazanılan uğurlardan məmnun olduqlarını bildirən sakinlər onların müraciətlərinə obyektiv yanaşılmasına, o cümlədən göstərilən diqqətə və həssas münasibətə görə dövlət başçısına minnətdar olduqlarını bildiriblər.

Həmin gün general-polkovnik V.Eyvazov adıçəkilən rayonların polis orqanlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrində xidmətə qəbulla bağlı sıra baxışı da keçirib.

Polis orqanlarında işləmək arzusunda olan gənclərdən qəbulun şərtlərinə uyğun gələn 152 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onların da 55-i Vətən müharibəsi iştirakçısı olub.

**DİN-in Mətbuat xidməti**





2-3_Layout 1 28.12.2022 19:07 Page 1



# 31 DEKABR - DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ

1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik bayramı kimi qeyd olunması barədə qərar qəbul edilib. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Ali Sovetə müraciət ünvanlayıb. Dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası müraciəti nəzərə alaraq, dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olunması barədə qanun qəbul edib.

2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Qurultay soydaşlarımızın milli mənlik şüurunun güclənməsinə, müxtəlif ölkələrdə azərbaycanlı icmalarının mütəşəkkilliyinin və fəallığının artmasına təsir göstərib. Bu, ölkənin ictimai-siyasi həyatında yeni bir hərəkat, dövlət siyasətinin yeni bir istiqaməti idi. Həmin qurultayda Ulu Öndərin böyük iftixarla söylədiyi "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" kəlamı isə dillər əzbərinə çevrilib.

Qurultaydan sonra Ümummilli Lider Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə xaricdəki soydaşlarımızla əlaqələrin genişləndirilməsi və inkişaf etdirilməsi məqsədilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (hazırda Diaspora İş üzrə Dövlət Komitəsi) yaradılması, həmin il dekabrın 27-də isə soydaşlarımızla bağlı dövlət siyasəti haqqında qanunun qəbul edilməsi dünya azərbaycanlılarının milli birliyi və təşkilatlanması prosesini daha da gücləndirib.



Yorulmaz fəaliyyəti ilə Heydər Əliyev siyasi fəlsəfəsinə, onun liderlik məktəbinə söykənən Prezident İlham Əliyev Ulu Öndərin bu sahədəki xidmətlərini uğurla davam etdirir. Dövlətimizin başçısının "Dünya azərbaycanlılarının II Qurultayının keçirilməsi haqqında" 2006-cı il 8 fevral tarixli Sərəncamına uyğun olaraq, həmin il martın 16-da Bakıda keçirilən növbəti mötəbər toplantı xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsi istiqamətində yeni addım olub, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işində əhəmiyyətli rol oynayıb.

2007-ci il martın 9-da Bakıda keçirilən Azərbaycan və Türk diaspor təşkilatları rəhbərlərinin birinci forumu isə bütün türkdilli xalqların həyatında mühüm hadisəyə çevrilib, Azərbaycan Prezidenti İlham Əliyevin Türk dünyasının birliyinə verdiyi əhəmiyyətin parlaq təzahürü kimi tarixə düşüb.

Diasporumuzun təşkilatlanması prosesi bu gün daha sürətlə gedir.

2020-ci ilin 27 sentyabr – 9 noyabr tarixlərində 44 gün davam edən Vətən müharibəsində xalqımız Müzəffər Ali Baş Komandanımızın ətrafında yumruq kimi birləşdi, torpaqlarımızın azadlığı uğrunda mübarizədə milli həmrəyliyin ən gözəl nümunəsini yaratdı. Əslində, bu birliyin müəllifi də elə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin özüdür.

Həmrəylik Günü milli birlik, Azərbaycana məhəbbət, milli-mənəvi dəyərlərimizə hörmət, Vətənə bağlılıq hisslərini özündə təcəssüm etdirir.

Dövlətimizin diaspor siyasəti, həmvətənlərimizin birlik və həmrəyliyinin möhkəmləndirilməsi, onların daha mütəşəkkil formada təşkilatlanması prosesi özünün yeni mərhələsinə qədəm qoyub. Artıq dünya azərbaycanlıları yaşadıqları ölkələrin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında daha fəal rol oynayır, respublikamızla qarşılıqlı əlaqələrin genişlənməsinə böyük töhfə verir, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında, zəngin mədəni irsimizin təbliğində, təcavüzkar erməni dairələrinin ideoloji təxribatlarının qarşısının alınmasında qətiyyət nümayiş etdirirlər. Onlar Azərbaycan dövlətinin dəstəyi sayəsində qardaş və dost xalqların lobbi və diasporları ilə səmərəli əməkdaşlığın qurulması sahəsində təsirli tədbirlər həyata keçirirlər.

**Həmrəylik Gününüz mübarək!**

# EKOLOJİ TERRORA QARŞI DİNC AKSİYA İŞTİRAKÇILARININ TƏHLÜKƏSİZLİYİ YÜKSƏK PEŞƏKARLIQLA TƏMİN OLUNUR



Qələbə ilə başa çatan 44 günlük Vətən müharibəsindən sonra Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarına daxil olan şəhər və rayonlarımızda polis əməkdaşları ilə birgə ayıq-sayıq xidmət aparan Daxili Qoşunların hərbi qulluqçuları qanunvericiliklə onlara həvalə edilən vəzifələri peşəkarlıqla yerinə yetirir, təhlükəsizliyin təmin olunmasına öz layiqli töhfələrini verirlər.

Məlum olduğu kimi, son günlər Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə təbii sərvətlərimizin talanmasına, xüsusilə Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarının qanunsuz istismarına, eləcə də Qarabağ iqtisadi rayonunda





ekoloji terrora etiraz olaraq ekofəallar və qeyri-hökumət təşkilatlarının təmsilçiləri Laçın-Xankəndi yolunun bir hissəsində dinc aksiya keçirirlər.

Aksiya iştirakçılarının təhlükəsizliyi Daxili İşlər Nazirliyinin hərbi qulluqçuları və polis əməkdaşları tərəfindən təmin olunur. Təhlükəsizlik təmin olunması üzrə təşkil edilən xidmət aksiya iştirakçıları tərəfindən minnətdarlıqla qarşılanır. Fəallar tərəfindən aksiyada DİN-in hərbi qulluqçularının və polis əməkdaşlarının ünvanına alqışlarla səsləndirilən şüarlar ictimai rəğbətin, habelə onların fəaliyyətinin müsbət qiymətləndirilməsinin təzahürüdür.



**Mətbuat xidməti**

# HELİKOPTER MANQASI PEŞƏKARLIĞI İLƏ NÜMUNƏDİR

"Əsgər" qəzetinin ötən saylarında Daxili Qoşunların 17077 saylı hərbi hissəsinin nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçuları barədə materiallar dərc olundu. Budəfəki sayımızda isə hərbi hissənin helikopter manqasının hərbi qulluqçularının xidmətini işıqlandıracağıq.

Hərbi hissənin helikopter manqasında baş pilot mayor Emil Manafov icraçılığına, iş qabiliyyətinə və döyüş hazırlığına görə seçilən zabitlərdən biridir. O, 2008-ci ildən Daxili Qoşunların sıralarında xidmət edir. 2019-cu il oktyabrın 1-dən helikopter manqasında baş pilot vəzifəsindədir.

Mayor E.Manafovla söhbət zamanı məlum oldu ki, uçuşdan bir gün öncə uçuşa hazırlıq keçirilir. İlk olaraq, helikopterlərə texniki heyət tərəfindən baxış keçirilir, texniki qulluq göstərilir və müvafiq reqlament işləri aparılır. Bu zaman nasazlıqlar aşkar olunarsa, dərhal aradan qaldırılır. Uçuşun həyata keçirildiyi gün heyət üzvlərinin qarşısına qoyulan müvafiq tapşırıq xəritə üzərində müzakirə edilir, marşrutun uzunluğu, hava şəraitinə uyğun olaraq helikopterin yanacağı və yükün çəkisi hesablanır. Baş pilot qeyd etdi ki, helikopterlər 4 tona qədər yük, 24 nəfər desant və ya 12 nəfər yaralı götürə bilər. Helikopterin öz çəkisi ilə birlikdə ümumi yükün çəkisi 13 tondan artıq ola bilməz: "Helikopterlərlə paraşüt-desantların, yük və xüsusi yüklərin, yaralıların daşınması və aidiyyəti üzrə çatdırılması, axtarış-xilasetmə və kəşfiyyat işlərinin aparılması həyata keçirilir".





Helikopter manqasında pilot-şturman mayor Emin Manafov da təcrübəli mütəxəssis kimi vəzifələrini dərindən bilir, peşə hazırlığını daim təkmilləşdirmək üçün çalışır. O da əkiz qardaşı Emil kimi peşəsinə olan rəğbəti, müsbət fərdi keyfiyyətləri ilə fərqlənir. Şturman hesablamalarını tez və dəqiq yerinə yetirməyi, uçuşun proqramlaşdırılması üçün ilkin məlumatları təyin etməyi bacarır və uyğun uçuş proqramını tərtib edir, idarəetmə mərkəzindən verilən komandaları vaxtında və düzgün yerinə yetirir.

Borttexnik-atıcı kapitan Rəşad Hüseynov isə uçuş aparatının döyüş hazırlığına, sazlığına, uçuşlara tam keyfiyyətlə hazırlanmasına, avadanlıqların sazlığına nəzarət edir. Özünə qarşı tələbkarlığı, işinə məsuliyyəti ilə seçilir. Bacarıqlı zabit, nümunəvi hərbi qulluqçu kimi xarakterizə olunur.

**kapitan Xədicə Hacızadə**

# KOMENDANT BÖLÜYÜ HƏRBİ HİSSƏNİN ÖNCÜLLƏRİ SIRASINDADIR

İstənilən hava şəraitində xidmətin ayıq-sayıq aparılması hərbi qulluqçudan möhkəm iradə, dözümlülük və böyük məsuliyyət tələb edir. Sadalanan bu və digər müsbət keyfiyyətləri Daxili Qoşunların 17071 saylı hərbi hissəsinin komendant bölüyünün hərbi qulluqçularının hər birində görmək olar. Cari ilin may ayından oktyabr ayınadək qoşun xidməti və hərbi intizamın yekunlarına görə qabaqcıl yerlər tutan komendant bölüyü hərbi hissənin öncül bölmələrindəndir.

Döyüş Bayrağının və hərbi obyektlərin etibarlı mühafizəsi və müdafiəsi bölüyün fəaliyyətinin əsasını təşkil edir. Bu baxımdan qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsi, xidmətin düzgün təşkil edilməsi olduqca vacibdir.

Bölük komandiri kapitan Rəyasət Əliyev söylədi ki, xidmət Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələblərinə əsasən təşkil edilir. Komandir kimi bölüyün döyüş hazırlığının yüksəldilməsi, nizam-intizamın möhkəmləndirilməsi üçün daim çalışan zabit tələbkarlığı ilə yanaşı, şəxsi heyətdən diqqət və qayğısını əsirgəmir. 2022-ci ilin may ayından bu vəzifədədir. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur.



Komendant bölüyündə xidmətin çətin, lakin şərəfli və məsuliyyətli olduğunu diqqətə çatdıran bölük komandiri döyüş xidmətinə seçilən hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlığının nəzərə alındığını bildirdi. Məlumdur ki, məsuliyyətli, eyni zamanda mühüm vəzifəni yerinə yetirmək üçün bölükdə xidmət edən hər bir hərbi qulluqçunun fiziki baxımdan sağlam, nizam-intizamının qənaətbəxş və atəş hazırlığının yüksək səviyyədə olması vacib amillərdir. Bu gün xidmətə cəlb olunan şəxsi heyətdə sadalanan keyfiyyətlərin olduğunu deyən kapitan R.Əliyev hərbi qulluqçularla keçirilən məşğələlərin əhəmiyyətini önə çəkdi, onların bilik və bacarıqlarının artırılmasına təkan verdiyini dedi.

Kapitan R.Əliyev onu da əlavə etdi ki, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi qulluqçular arasında yoldaşlıq münasibətlərinin qorunub saxlanılması məqsədilə tərbiyə işi tədbirləri keyfiyyətlə həyata keçirilir. O, bölük komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Abbas Abbasovun də əməyini xüsusilə vurğuladı, üzərində daim işlədiyini, verilən tapşırıqları bacarıqla və vaxtında yerinə yetirdiyini bildirdi.

Bölük komandiri komendant bölüyünün qabaqcıl hərbi qulluqçularından gizir Elmin Nəsrullayev, çavuş Abbasəli Bədəlov, əsgərlər Sərxan Rəsulov, Fuad Məmmədov və Rauf Məmmədovun adlarını çəkərək, onların yoldaşlarına nümunə olduqlarını qeyd etdi.

**kapitan Şahin Cəfərzadə**

3-2_Layout 1 29.12.2022 10:11 Page 1



*Şəhidlərimiz*

# “ŞƏHİDLƏRİMİZİN QİSASINI ALDIM!”

44 günlük Vətən müharibəsi zamanı öz qanları ilə şanlı Zəfər tariximizi yazan şəhid silahdaşlarımızın şərəfli həyat və döyüş yolunu öyrənmək hər birimizin vətənpərvərlik borcudur.

Vətən uğrunda qəhrəmancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəlmiş Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının igid xüsusi təyinatlılarından biri də çavuş Ələsgərzadə Sənan Muxtar oğludur.

Çavuş Sənan Ələsgərzadə 1995-ci il oktyabrın 10-da Şəki rayonunun Əliyar kəndində anadan olub. Muxtar Qarayevin və Heyran Qarayevanın böyüdüb tərbiyə etdiyi üç övladdan (Gülnaz, Elmas və Sənan) biri, həmçinin ailənin sonbeşiyi idi.

Sənan natamam orta təhsilini Əliyar kənd ümumi orta məktəbində alıb. Ailəsinin verdiyi məlumata görə, hələ uşaq yaşlarından hərbçi peşəsinə xüsusi maraq göstərib, ən sevimli oyuncağı isə “avtomat silahı” olub. Azyaşlı Sənanın gələcəkdə əsgər olacağını, işğalçı erməni əsgərlərini öldürüb, torpaqlarımızı azad edəcəyini deməsindən valideynləri böyük fərəh hissi keçirər, onun el-obaya bağlı vətənpərvər ruhda böyüməsindən qürur duyardılar. Ümumiyyətlə, Sənan yaşadığı kəndin sakinləri arasında da tərbiyəli, mehriban, deyib-gülən, eləcə də böyük-kiçik yeri bilən bir gənc kimi tanınıb. Eyni zamanda hərbi xidmətə çağırılanadək fiziki hazırlığına xüsusi fikir verib, həvəskar qaydada futbol oynayıb. Təsərrüfat işlərində isə valideynlərinə hər zaman köməklik edib, onların qulluğunda dayanıb.

2013-cü ilin oktyabr ayında Sənan Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki Rayon Şöbəsi tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. 2015-ci ilin aprel ayınadək Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 12318 və 25033 saylı hərbi hissələrində hərbi xidmət keçib. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra qoşunların sıralarında qalaraq, hərbi xidmətini davam etdirməyə qərar verib. Beləliklə, 2016-cı ilin aprel ayında müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunaraq, 16073 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi bölməsinin manevr qrupunun atıcı-sanitarı vəzifəsinə təyin edilib. 2017-ci ilin avqust ayından etibarən hərbi hissənin “Bəbir” şərti adını daşıyan xüsusi təyinatlı dəstəsində xidmətini davam etdi-



rən çavuş S.Ələsgərzadə əvvəlcə atəş təminatı qrupunun AQS-17 qumbaraatan yarımqrupunun heyət nəfəri, 2018-ci ilin may ayından isə xüsusi həmlə qrupunun atıcı-heyvan təlimçisi vəzifəsində xidmət edib. Xidmət etdiyi dövrdə yüksək döyüş hazırlığı, hərbi intizamı və nümunəvi keyfiyyətləri ilə fərqlənən hərbi qulluqçumuz hərbi hissənin və dəstənin komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb.

Vətən müharibəsi zamanı Sənan düşmənə olan sonsuz nifrət hissi ilə döyüşlərdə fəal iştirak edib. 2020-ci il sentyabrın 28-dən hərbi əməliyyatlara qatılan çavuş S.Ələsgərzadə Füzuli, Cəbrayıl və Xocavənd rayonları istiqamətlərində yerləşən bir çox yaşayış məntəqəsinin və ayrı-ayrı strateji yüksəkliklərin azad olunması uğrunda gedən döyüşlərdə əsl xüsusi təyinatlı kimi fərqlənib. Silahdaşlarının bildirdiklərinə görə, döyüşlər zamanı Sənan öz sərrast atəşi ilə hər dəfə düşmən hərbçisini cəhənnəmə vasil edəndə böyük qürurla “şəhidlərimizin qisasını aldım!” deyərdi.

**19 oktyabr 2020-ci il.** Füzuli-Xocavənd istiqamətində gedən döyüşlərdən biri Sənanın son döyüşü oldu. Bu döyüşdə dəstə komandiri mayor Şixamir Qaflanovun rəhbərliyi altında tərkibində Sənanın da vuruşduğu cəsur xüsusi təyinatlılardan ibarət qrupun şəxsi heyəti tərəfindən ermənilərin xeyli sayda canlı qüvvəsi və hərbi texnikası məhv edilərək mühüm mövqelər ələ keçirilir. Lakin acı məğlubiyyətlə barışmaq istəməyən düşmən digər yüksəkliklərdə yerləşən postlarından itirdiyi mövqeləri snayperlərdən və iriçaplı silahlardan güclü atəşə tutur. Şiddətli döyüşün gedişində düşmənin atdığı minaatan mərmisinin yaxınlığında partlaması nəticəsində Sənan sağ qolundan ağır qəlpə yarası alır. Yoldaşları tərəfindən ona ilk tibbi yardım göstərilməsinə, eləcə də döyüş meydanından təxliyyə olunmasına baxmayaraq, yarası ağır olduğundan və çoxlu qan itirdiyindən çavuş S.Ələsgərzadə gözlərini əbədi yumaraq şəhidlik zirvəsinə yüksəlir.

Bu döyüşdə Sənanla birgə Daxili Qoşunların 16073 saylı hərbi hissəsinin digər 3 nəfər cəsur hərbi qulluqçusu – mayor Şixamir Qaflanov, baş çavuş Surxay Mehdiyev, baş çavuş Sahib Məmmədov, həmçinin Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsinin 8 nəfər xüsusi təyinatlısı şəhid oldu. “Bəbir” şərti adını daşıyan xüsusi təyinatlı dəstənin digər hərbi qulluqçuları - baş çavuşlar Toğrul Ağayev, İlqar Əhmədov, Elçin Məcidov, Tahir Əliyev, Vüqar Hüseynli, çavuşlar Gözəl İmanov, Araz Hüseynov, İbrahim Kutulasov, Sənan Qənbərov, Sahil Həsənov, Məhəmməd Atayev və Orxan Abdullayev yaralanıblar.

Füzuli Rayon Qeydiyyat Şöbəsi tərəfindən verilmiş 22 oktyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə isə hərbi qulluqçumuzun 2020-ci il oktyabrın 19-da Füzulidə hərbi əməliyyat nəticəsində odlu silah və digər adi silah növləri ilə törədilmiş zədələnmələrdən həlak olduğu yazılıb.

Çavuş S.Ələsgərzadə 2020-ci il oktyabrın 20-də Əliyar kəndinin Şeyx Osman qəbiristanlığında dəfn olunub. Subay idi. Sənan nişanlı olsa da, 2020-ci ilin aprel ayına planlaşdırılmış toy mərasimi ölkəmizdə elan edilmiş pandemiya şəraiti ilə əlaqədar təxirə salınmışdı. Sənan müharibə xalqımızın qələbəsi ilə başa çatdıqdan sonra toy edib ailə həyatı qurmağı və xoşbəxt ömür sürməyi düşünürdü.

Azərbaycan Respublikası Prezidentinin 15 və 24 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə çavuş Ələsgərzadə Sənan Muxtar oğlu ölümündən sonra “Vətən uğrunda” və “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif edilib.

Şəhid silahdaşımızın bir zamanlar yaşadığı Əliyar kəndindəki evində və təhsil aldığı məktəbdə xatirə guşəsi yaradılıb. Bundan əlavə, Rusiya Federasiyasında ya-



şayan kənd sakinlərinin şəxsi vəsaiti hesabına rayonun Əliyar, Şirinbulaq, Aydınbulaq və Cəfərabad kəndlərindən olan 10 nəfər şəhidin xatirəsinin əbədiləşdirilməsi məqsədilə inşa edilmiş xatirə-bulaq kompleksində Sənanın da şəkli həkk olunmuş mərmər lövhə quraşdırılıb.

Ümumiyyətlə, Əliyar kəndinin əhalisinin sayı rayonun digər kəndlərindən az olsa da, hər zaman vətənpərvər, torpağa bağlı, zəhmətkeş sakinləri ilə seçilib. Şəhidin atası Muxtar Qarayev qeyd etdi ki, kəndin respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş beş nəfər sakinindən bir nəfəri Birinci Qarabağ müharibəsi (Vəliyev Elxan Zaməddin oğlu), bir nəfəri 2016-cı ilin aprel döyüşləri (Tağıyev Rahim Qara oğlu), üç nəfəri isə 44 günlük Vətən müharibəsi zamanı (Ələsgərzadə Sənan Muxtar oğlu, Əhmədov Qalib Rəşid oğlu və Səlimli Bakıxan Alim oğlu) əbədiyyətə qovuşub. Torpaqlarımızın azadlığı uğrunda canından keçən Rahim Tağıyev Sənanın yaxın qohumu olub. Həmçinin şəhid silahdaşımızın müharibə veteranı olan əmisi Mikayıl Qarayev 1992-1994-cü illərdə Qazax və Tovuz rayonlarının müdafiəsi uğrunda erməni işğalçılarına qarşı vuruşub.

Qürur hissi ilə qeyd etməliyik ki, şəhidin qardaşı Elmas Ələsgərzadə də Vətən müharibəsi iştirakçısıdır. Murovdağ istiqamətində gedən döyüş əməliyyatlarında fərqləndiyinə görə “Kəlbəcərin azad olunmasına görə” medalı ilə təltif edilib. Elmas qeyd etdi ki, şəhid qardaşının doğum günündə dünyaya göz açan ikinci övladına Sənanın adını verib. Böyük övladına Raul adının verilməsini isə vaxtilə ondan məhz Sənan xahiş etmişdi.

Onu da qeyd edim ki, Azərbaycan Respublikasının Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun diqqət və qayğısı nəticəsində şəhid hərbi qulluqçumuzun qardaşı daxili işlər orqanlarında xidmətə qəbul edilib. Polis serjantı E.Ələsgərzadə hazırda Şəki Şəhər-Rayon Polis Şöbəsində post-patrul xidməti bölüyünün polis nəfəri vəzifəsindədir.

“Övladlarımla, o cümlədən torpaqlarımızın azadlığı və müdafiəsi uğrunda döyüşən qeyrətli oğullarımızla qürur duymuşam, bundan sonra da təbii ki, belə olacaq. Ən böyük arzum iki nəvəmin də vətənpərvər ruhda böyüyərək, xalqımıza layiqli övlad və ölkəmizin dəyanətli vətəndaşı olmalarını görməkdir. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin. Qoy qəhrəman oğullarımız dünya durduqca hər zaman var olsunlar!” – deyən şəhid atası Muxtar Qarayevin də vurğuladığı kimi, şəhidlərimizin əziz xatirəsi hər birimizin qəlbində əbədi yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**mayor Anar Əhmədov**

*Qazilərimiz*

# DÖYÜŞLƏRDƏ RUH YÜKSƏKLİYİ VƏ CƏSURLUQ NÜMAYİŞ ETDİRƏN XÜSUSİ TƏYİNATLI

Şanlı qələbəmizlə başa çatan 44 günlük Vətən müharibəsinin minlərlə iştirakçısı qazi olaraq ailəsinə qayıdıb. Döyüş meydanında mətinliklə vuruşaraq əlil olan və sağlamlığını itirən bu qalib döyüşçülər xalqımızın ləyaqətli övladlarıdır. Biz onlarla fəxr edirik, hər birinə diqqət və qayğı göstərməyi özümüzə borc bilirik. Qazi şərəfli addır, qazilik mənəvi ucalıq, fədakarlıq nümunəsidir.

İstefada olan çavuş Mehtiyev Ceyhun Çingiz oğlu da Vətən müharibəsi qazisidir. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sabiq hərbi qulluqçusu olan Ceyhun 1996-cı il iyunun 19-da Sabirabad rayonunun Qaralar kəndində doğulub. Çingiz Mehtiyev və Təranə Mehtiyevanın iki oğul övladından biridir, qardaşı Cəmildən bir yaş böyükdür. O, II Dünya müharibəsində faşistlərə qarşı döyüşmüş veteran İmamverdi Məmmədovun nəvəsidir. Babası 1997-ci ildə dünyasını dəyişib.

Zəhmətkeş ailədə böyüyərək boya-başa çatan Ceyhun mənəvi dəyərlərimizə bağlılıq ruhunda tərbiyə olunub. Sabirabad rayonunun Məmişlər kənd tam orta məktəbinin məzunudur, burada 11 il təhsil alıb. Özünün dediyinə görə, orta məktəbdə ən çox maraq göstərdiyi fənlərdən biri çağırışaqədərki hazırlıq olub. İdmana həvəslə yanaşıb, davamlı məşqlər edib, fiziki hazırlığına xüsusi diqqət yetirib. Hələ məktəbli olduğu dövrdə Ceyhun hərbçi və polis peşələrinə rəğbət bəsləyib.

2014-cü ilin iyul ayında Ceyhun müddətli həqiqi hərbi xidmətə çağırılıb. Dövlət Sərhəd Xidmətinin tərkibində, Xaçmaz rayonunun ərazisindəki zastavada xidmət keçərək, şimal sərhədimizin keşiyində dayanıb. 2016-cı ilin yanvar ayında hərbi xidmətdən tərxis olunub.

2017-ci ilin may ayının 27-də Ceyhun öz arzusu ilə DİN-in Daxili Qoşunlarının sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Xidmət keçdiyi 99713 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi bölməsinin götürmə qrupunun atıcısı və xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun, eləcə də 67987 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun atıcı-sanitarı vəzifələrinə təyin edilərək komandanlığın etimadını doğruldub. Döyüş və mənəvi-psixoloji hazırlığında nümunəvi cəhətdən fərqlənib, qarşıya qoyulan tapşırıqların öhdəsindən bacarıqla gəlib. Silah-



daşlarının hörmətini qazanıb.

Vətən müharibəsi qazisi, istefada olan gizir Ruslan Kübərov 67987 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin yarımqrup komandiri vəzifəsində xidmət edib. O bildirdi ki, Ceyhunu həmin dəstədə xidmət etdiyi vaxtdan tanıyır, qazinin müsbət fərdi keyfiyyətlərə malik olduğunu vurğuladı. Ruslan qeyd etdi ki, 2020-ci ilin sentyabr ayının 27-də erməni işğalçılarına qarşı Vətən müharibəsi başladıqda Müdafiə Nazirliyinin xüsusi təyinatlıları ilə birlikdə döyüşlərə cəlb olunublar. Ceyhunla eyni qrupun tərkibində ön cəbhənin müxtəlif istiqamətlərində düşmənə qarşı vuruşublar. Dəfələrlə onun cəsurluğunun şahidi olduğunu dedi. Oktyabrın 9-da Ruslan yaralandığına görə silahdaşlarından ayrılıb.

Vətən müharibəsi qazisi, ehtiyatda olan çavuş Məmməd Hacıyev qoşunlarda müddətdən artıq həqiqi hərbi xidmət keçib. Son xidmət yeri 17074 saylı hərbi hissə olub, xüsusi təyinatlı dəstənin istehkam yarımqrupunun istehkamçı-radiotelefonçusu vəzifəsinə təyin edilib. Ceyhunla ön cəbhədə tanış olub. Müharibənin ilk günündən yaralandığı günədək onunla birgə erməni işğalçılarına qarşı qətiyyətlə döyüşüb. Söhbət zamanı maraqlı məqamlar barədə məlumat verdi: “Ceyhun hərbi qulluqçu üçün vacib sayılan bütün keyfiyyətlərə malik olub. Məhz bu səbəbdən xüsusi təyinatlı dəstədə xidmət etməyin bütün çətinliklərinə sinə gərib. Ceyhunu hər anında ölüm, əzab-əziyyət olan, yüksək gərginlikli döyüş şəraitində görmüşəm. Tam səmimi olaraq deyə bilərəm ki, o, sonunda ölüm olsa belə, silahdaşını köməksiz qoymayacaq biridir. Etibarlı yoldaş olduğu döyüş meydanında sınanıb.

Vətən müharibəsinin ilk günlərində Murovdağ silsiləsinin Camışdağ yüksəkliyi, Kəlbəcər rayonunun Susuzluq kəndi və ətrafındakı yüksəkliklər istiqamətlərində ərazinin dərinliklərinə sızaraq, əvvəlcədən təyin edilən koordinatlarda mövqeləndik. Mürəkkəb relyefin yaratdığı maneələrə baxmayaraq, cəmləşdiyimiz ərazidə düşmənin müdafiə mövqelərinə zərbə endirilməsi üzrə döyüş tapşırıqlarını yerinə yetirdik.

Sonra ön cəbhənin digər istiqaməti - Cəbrayıl rayonunun ərazisində döyüş əməliyyatlarında iştirak etdik. Burada işğalçıların xeyli canlı qüvvəsini tələfata uğratdıq, onların müxtəlif texnikasını sıradan çıxartdıq və ya ələ keçirdik, ermənilərin arasında vahimə vardı. Bir döyüş epizodunu danışım. Cəbrayıl rayonunun Horovlu kəndinin içərisində irəliləyən zaman düşmənin “Ural” markalı yük avtomobilinin hərəkətini müşahidə etdik. Şürətli şəkildə pusqu quruldu və avtomobil vuruldu. Bundan əlavə, ermənilərin iki ədəd piyada döyüş maşınının və müəyyən sayda şəxsi heyətinin hərəkətini aşkarladıq, təxminən 100-150 metr məsafədən açıq döyüşə girdik. Düşmən qısa vaxtdan sonra qarşımızdan qaçmağa başladı, hətta qorxudan zirehli texnikalarını işlək vəziyyətdə ataraq oradan geri çəkildilər. Növbəti uğurlu döyüşlər viran qoyulmuş Cəbrayıl şəhərində oldu. Təcavüzkarın xüsusi təyinatlı briqadasının yerləşdiyi hərbi hissə və şəhərdəki digər canlı qüvvəsi üzərinə hücum əmri verildi. Döyüşlər zamanı işğalçılar məhv edildi.

Füzuli-Qarğabazar-Hadrut yolu istiqamətində hərəkət edərkən pusquya düşdük. Tabor və qrup komandirlərinin bacarıqlı idarəetməsi, şəxsi heyətin peşəkarlığı sayəsində bu pusqudan az itki ilə çıxdıq.

Ümumilikdə, Cəbrayıl, Füzuli, Xocavənd, Xocalı rayonlarının ərazilərində ayrı-ayrı yaşayış məntəqələri, habelə mühüm yüksəkliklərin işğaldan azad olunması uğrunda həlledici döyüşlərdə iştirak etmişik. Strateji əhəmiyyətli Məngələnata yüksəkliyi ətrafında döyüşlər zamanı Ceyhun pusqu qrupunun tərkibində idi. Bu qrup Füzuli-Şuşa yolu üzərində pusqu mövqeyi quraraq, düşmənin buradan keçən təxminən 30 nəfərə yaxın canlı qüvvəsini məhv etdi. Bir minik, altı təminat avtomobili ələ keçirildi.

Böyük Tağlar kəndində axtarış-müşahidə tapşırıqlarını uğurla icra etdikdən sonra Çanaqçı kəndi ətrafındakı mövqeləri nəza-



rətə götürə bildik. Buradan Sığnaq kəndinin şimal istiqaməti üzrə hərəkət etdik. Sığnaq-Şuşakənd-Xankəndi yolunun üzərində pusqu fəaliyyətini yerinə yetirdik. Oktyabrın 30-da isə Daşaltı kəndi istiqamətində irəlilədik. Qarşıya qoyulan əsas tapşırıqlardan biri Şuşanın Cıdır düzündən Daşaltı istiqamətinə baxanda üzbəüz görsənən “N” saylı yüksəklik digər xüsusi təyinatlı tabor tərəfindən tutulduqdan sonra Daşaltının sol tərəfindəki yüksəkliklərdən keçməklə Şuşa-Laçın yoluna çıxaraq orada mövqelənməkdən ibarət idi. Oktyabrın 31-də işğalçıların atdıqları minaatan mərmilərinin partlaması nəticəsində mənimlə yanaşı, Ceyhun və daha 4 nəfər silahdaşımız yaralandı. Təxliyyə edilməyimiz üçün baş çavuş Olxan Quliyev fədakarlıq göstərdi. Sığnağa doğru bir neçə kilometr yolu qaçaraq, iki nəfər döyüşçünün köməyi ilə oradan təxliyyə avtomobillərinin gələrək bizim olduğumuz mövqeyə yaxınlaşmasına şərait yaratdı. Təxliyyə ləngisəydi, bəzi yaralı yoldaşlarımızın həyatını xilas etmək mümkün olmazdı.

Xüsusi vurğulamaq istəyirəm ki, silahdaşımız döyüşlərdə əsl xüsusi təyinatlıya layiq şəkildə, mərdliklə vuruşub”.

Ceyhunun tibbi sənədlərində bir neçə mülki xəstəxana, Silahlı Qüvvələrin Baş Klinik Qospitalı, DİN-in Daxili Qoşunlarının Hərbi Qospitalında müayinə və müalicə olunduğu qeyd edilib, eləcə də yazılan yekun diaqnozda partlayış travması, odlu silah mərmilərinin qəlpələri ilə yaralanmasının müxtəlif fəsadları öz əksini tapıb. Hərbi xidmətə yararsız hesab edilərək, 3-cü əlillik dərəcəsi verilməklə, 2021-ci ilin iyul ayında istefaya buraxılıb.

Azərbaycan Respublikası Prezidentinin 18, 25 və 29 dekabr 2020-ci il, 24 iyun 2021-ci il tarixli müvafiq sərəncamları ilə çavuş C.Mehtiyev “Cəsur döyüşçü”, “Füzulinin azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə”, “Kəlbəcərin azad olunmasına görə”, “Cəbrayılın azad olunmasına görə” medalları, Nazirlər Kabinetinin 21 aprel 2022-ci il tarixli sərəncamına əsasən, “Vətən müharibəsi iştirakçısı” medalı ilə təltif olunub.

Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının 31 dekabr 2020-ci il tarixli müvafiq əmri ilə xüsusi təyinatlıya zoğalı beret daşıma hüququ verilib. Qaziyə “Müharibə veteranı” vəsiqəsi təqdim edilib.

Qeyd edim ki, qazinin qohumu Zamin Balakişiyev Vətən uğrunda şəhidlik zirvəsinə ucalıb.

Sabirabad rayonunun Məmişlər kəndində yaşayan Ceyhun 2019-cu ilin iyun ayında ailə qurub, iki oğlu var. Çingiz müharibədən bir neçə ay əvvəl - mayın 9-da, Musa isə 2021-ci il dekabrın 31-də anadan olub. Bu azyaşlılar qalib ölkənin vətəndaşları kimi böyüyəcəklər, qazi övladları olduqlarını həmişə qürurla söyləyəcəklər və ataları kimi igidlərdən örnək götürərək müqəddəs torpaqlarımızı gələcəkdə göz bəbəyi kimi qoruyacaqlar.

**Yalçın Abbasov**

# DAXİLİ QOŞUNLARIN TƏLİM MƏRKƏZİNDƏ KEÇİRİLƏN TƏLİMLƏR ŞƏXSİ HEYƏTİN DÖYÜŞ QABİLİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ BAŞLICA ROL OYNAYIR



Daxili Qoşunların hərbi qulluqçularının peşə vərdişlərinin təkmilləşdirilməsi, həmçinin hərbi bilik və bacarıqlarının artırılması baxımından Təlim mərkəzində hərtərəfli şərait mövcuddur. Sözügedən mərkəzdə qoşunların hissə və bölmələrinin döyüş qabiliyyətinin yüksəldilməsi, onların qarşısında duran tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi, habelə rəhbər sənədlərin tələblərinə uyğun olaraq şəxsi heyətin döyüş təliminin təşkili məqsədilə təlim obyektləri yaradılıb. Burada Daxili Qoşunların Baş İdarəsinin,




hərbi hissələrin hərbi qulluqçuları ilə yanaşı, daxili işlər orqanlarının şəxsi heyəti də atəş hazırlığının ən vacib hissəsi olan praktiki atəş çalışmalarını yerinə yetirirlər.



Təlim mərkəzinin rəisi mayor Umruz Məmmədov hərbi qulluqçuların praktiki fəaliyyətlərinin təkmilləşdirilməsi baxımından atəş hazırlığı, mühəndis hazırlığı, tək əsgərin döyüş təlimi, xüsusi vasitələrin tətbiqi,



Daxili Qoşunların taktiki hazırlığı və taktiki hazırlıq şəhərciklərinin praktiki əhəmiyyətini vurğuladı. O, səhra şəraitində nəzəri biliklərin aşılanması üçün hər cür şəraitin olduğunu da sözlərinə əlavə etdi. Təlim mərkəzində bu məqsədlə yaradılan tədris siniflərinin şəxsi heyətin istifadəsində olduğunu bildirdi.

**Bölük öz təyinatı üzrə vəzifələri uğurla yerinə yetirir**

Yaradılan hərtərəfli şəraitin, eləcə də Təlim mərkəzinin yüksək döyüş hazırlığının qorunub saxlanılmasını buradakı təminat bölüyü həyata keçirir. Bölük komandiri vəzifələrini müvəqqəti icra edən kapitan Arzu Mustafayev əvvəlcə bölüyün üzərinə düşən vəzifələrdən danışdı. Bildirdi ki, təminat bölüyünün şəxsi heyəti qarşıya qoyulan tapşırıqları uğurla icra edir. Təlim mərkəzinin etibarlı mühafizəsi, hissə və bölmələrin praktiki atışlarının təmin edilməsi, atış sahələrinin daim hazır vəziyyətdə olması, təlim şəhərciklərinin, o cümlədən tədris siniflərinin hazırlanması, ərazinin səliqə-sahmanının qorunub saxlanılması təminat bölüyünün əsas vəzifələrindəndir.

Kapitan A.Mustafayev qarşıya qoyulan vacib tapşırıqların öhdəsindən layiqincə gəlmək bacarığına malik olan leytenant Sədi Xəlilovun komandiri olduğu operatorlar taqımının fəaliyyəti barədə də danışdı. Gündəlik olaraq operatorlar taqımının şəxsi heyəti ilə ixtisasına uyğun məşğələlərin keçirildiyini bildirdi.

Mayor U.Məmmədov tərəfindən də müsbət xarakterizə olunan leytenant S.Xəlilov qeyd etdi ki, taqımın əsas fəaliyyəti atış meydanının vaxtında hazır olması, hədəfqaldırıcı cihazların və idarəetmə avadanlıqlarının praktiki atəş çalışmasına hazırlanması, praktiki atışların keçirilməsinin təmin edilməsi, atışdan sonra hədəfqaldırıcıların növbəti praktiki atışlar üçün hazırlanması, onların sazlığı, qorunub saxlanılması, bunlarla yanaşı, elektrik təhlükəsizlik qaydalarına riayət edilməsi diqqətdə saxlanılır.

Operatorlar taqımının nümunəvi, bacarıqlı hərbi qulluqçularından gizir Səxavət Əsgərov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularından baş çavuş Vəli Vəliyev, baş əsgər Seymur Rəhimov, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Yavər Vəliyevin adlarını çəkən komandir onların hər birinin verilən tapşırıqların icrasında fərqləndiyini qeyd etməyi unutmadı.

**kapitan Nigar Ağayeva**

# “ZƏHMƏTSEVƏRLİK VƏ MƏSULİYYƏT HƏKİMİN VACİB KEYFİYYƏTLƏRİDİR”

Daxili Qoşunların Hərbi Qospitalında hərbi tibb personalı ilə yanaşı, ixtisaslı, peşəkar mülki həkimlərimiz də fəaliyyət göstərirlər. Qəzetimizin budəfəki sayında qospitalımızın cərrahiyyə şöbəsində həkim-stomatoloq Şahin Əliyevin həyatı və iş üslubunu oxucularımızın diqqətinə çatdıracağıq.



Ümumilikdə, 29 illik iş təcrübəsi olan Şahin həkim ilk baxışdan sadə, təvazökar və savadlı həkim kimi diqqəti cəlb edir. O, 1971-ci il sentyabrın 30-da Zəngilan rayonunda anadan olub. 1978-1988-ci illərdə Zəngilan rayonunun Mincivan qəsəbəsində yerləşən tam orta məktəbdə orta təhsil alıb. Orta məktəb illərindən ən böyük arzusu həkim peşəsinə yiyələnib, insanların sağlamlığının qayğısına qalmaq olub. Məhz bu səbəbdən orta təhsilini uğurla bitirərək 1988-ci ildə Azərbaycan Dövlət Tibb Universitetinin stomatologiya fakültəsinə qəbul olunub. 1993-cü ildə ali təhsilini başa vurduqdan sonra hərbi həkim kimi fəaliyyət göstərmək üçün Daxili Qoşunlara müraciət edib. Beləliklə, Ş.Əliyev 1993-cü ildə Daxili Qoşunların 25031 saylı hərbi hissəsində həkim-stomatoloq kimi hərbi xidmətə başlayıb. Xidmət müddəti dövründə müxtəlif vəzifələrə təyin olunan hərbi qulluqçu 2005-ci ildən 2014-cü ilə kimi Hərbi Qospitalda həkim-stomatoloq vəzifəsində peşəkarlıq göstərib. Həmin ildən tibb xidməti mayoru hərbi rütbəsində ehtiyata buraxılıb.

Hazırda mülki həkim olaraq cərrahiyyə şöbəsinin həkim-stomatoloqu vəzifəsindədir.

Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan Ş.Əliyev maraqlı həmsöhbət olsa da, özü haqqında demək olar ki, heç nə danışmadı. “Əsl həkim necə olmalıdır?” - sualına isə cavabı bu cür oldu: “Artıq uzun illərin təcrübəsinə əsaslanaraq deyə bilərəm ki, əsl həkim olmaq üçün təkcə savadlı olmaq yetərli deyil. Öz peşəsinə sevgi ilə yanaşmaq, zəhmətsevərlik və məsuliyyət həkimin vacib keyfiyyətləridir. Peşəkarlıq təcrübə hesabına qazanılsa da, həkimin peşəsi üzrə daim axtarışda olması və öz üzərində işləyərək savadını artırması çox önəmlidir. Hər sahədə ən vacib olan məsuliyyət hissidir. Məsuliyyətlə görülən bütün işlər səmərəli nəticə verir”.

Genişləndirilmiş tibbi müayinələrin gedişində hərbi hissənin şəxsi heyətinin ağız boşluğuna baxış keçirmək, vaxtında, tam sanasiya olunmasını planlaşdırmaq və həyata keçirmək, hərbi hissədə gündəlik ambulator və təxirəsalınmaz stomatoloji yardımın göstərilməsini, ehtiyacı olan xəstələrin stasionar müalicəsini təmin etmək onun funksional vəzifələridir. Həkim-stomatoloq görülən işlərdə ona köməklik edən cərrahiyyə şöbəsinin stomatoloji kabinetində diş texniki gizir Novruz Yusiflinin zəhmətini vurğulamağı unutmadı.

**kapitan Nigar Ağayeva**

*idman*

# İLİ QƏLƏBƏ MÜJDƏSİ İLƏ BAŞA VURAN İDMAN KOMANDAMIZ

İlin son rübündə bir-birinin ardınca qazandığı uğurlarla özünü tanıdan Daxili Qoşunların İdman komandasının müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Murad Allahverdiyev 2022-ci ilin son ayında da adını qaliblər sırasına yazdırmağı bacardı. “Əsgər” qəzetinin 23-cü sayında həm respublika çempionatının, həm də Avropa çempionatının qalibi kimi haqqında material dərc olunan Muradın peşəkar boksçu olaraq növbəti qələbə xəbəri Qazaxıstandan gəldi. Belə ki, dekabr ayının 18-dən 21-nə kimi Qazaxıstanın Karaqanda şəhərində boks idman növü üzrə keçirilən beynəlxalq turnirdə Daxili Qoşunların İdman komandasında atıcı-idmançı əsgər M.Allahverdiyev öz uğurlu çıxışı ilə növbəti dəfə adını tarixə yazdırdı. 80 kq çəkidə tatami üzərinə çıxan cəngavərimiz 4 görüş keçirərək hamısında qələbə qazanıb. Final mərhələsində yerli idmançı ilə gücünü sınayan hərbi qulluqçumuz onu təmiz qələbə ilə məğlub edərək turnirin qalibi kimi ilk pillədə qərarlaşıb.



Məlumat üçün bildirək ki, beynəlxalq yarışların qalibi, eləcə də 2018-ci ildə Avropa çempionatının mükafatçısı olan əsgər Murad Allahverdiyev 2002-ci il avqustun 29-da Tərtər rayonunda anadan olub. 2022-ci ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Tərtər Rayon Şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb.

***

İdman komandasının digər müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Vaqif Məmmədov keçən ay Bakıda keçirilən Zəfər kubokunda ilk üçlüyə düşməyi bacarıb. Daxili Qoşunların İdman komandasında atıcı-idmançı əsgər V.Məmmədov stend




atıcılığının səngər növü üzrə 97 xal toplayaraq 3-cü yerin sahibi olub. Qeyd edək ki, dəfələrlə Azərbaycan mükafatçısı olan hərbi qulluqçumuz 1999-cu il iyunun 15-də Bakı şəhərində doğulub. 2022-ci ilin iyul ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xətai Rayon İdarəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılıb.

İdman uğurları ilə hər zaman bizi sevindirən, xidmət etdikləri qoşunları həm respublikamızda, həm də dünya ölkələrində ləyaqətlə təmsil edən hər iki hərbçimizi təbrik edir və onların simasında bütün idmançılarımıza yeni ildə uğurlar, davamlı nailiyyətlər arzulayırıq.

**kapitan Nigar Ağayeva**

# MİNNƏTDARLIQ

Mən Daxili Qoşunların 16076 saylı hərbi hissəsində xidmət edən nəvəm Ağayev Fuad Rauf oğlunun bir neçə dəfə görüşünə getmişəm. Görüşdə hərbi hissənin ərazisinin təmizliyi, səliqəsi məni valeh edib. Nəvəm mənə deyir ki, baba, bizim xidmətaparma yerlərimiz hərbi hissənin həyətindən də gözəldir. Ötən ay nəvəmlə yenidən görüşdüm. Görüş zamanı hərbi hissə komandiri polkovnik-leytenant Vaqif Umudəliyev görüş yerinə gəldi. Bir neçə dəqiqə valideynlərlə söhbət etdi, müraciətimizin olub-olmaması ilə maraqlandı. Komandirin valideynlərlə xoş ünsiyyəti, hörmətli davranışı müsbət təəssürat yaratdı. Sonra hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini mayor Arzu İmanov valideynlərə müraciət edərək bildirdi ki, övladlarınızın hərbi hissədə hansı şəraitdə qulluq etdiklərini görmək istəyirsinizsə, mənimlə gedək, sizi tanış edim. Biz bir neçə valideyn əsgərlərin yataqxanasına, tibb məntəqəsinə, yeməkxanaya, camaşırxanaya, hamama, hərbi mağazaya baxdıq, gördüklərimiz hər birimizi sevindirdi və valeh etdi. Ali Baş Komandanımız cənab İlham Əliyevin diqqət və qayğısının təzahürüdür ki, bizim övladlarımız üçün belə şəraitə malik hərbi hissə inşa edilib.

Hərbi hissənin komandiri polkovnik-leytenant V.Umudəliyevə, bütün zabit, gizir və çavuş heyətinə minnətdarlığımı bildirirəm. Allah sizləri qorusun! Valideynlər övladlarına görə narahat deyillər, arxayındırlar ki, onlara lazımi qayğı göstərilir. Şəxsən mənim əhval-ruhiyyəm yüksək oldu. Hərbi hissənin şəxsi heyətinə xidmətində müvəffəqiyyətlər arzulayıram.

**Bahaddin Ağayev**
**Lənkəran rayonunun**
**İstisu qəsəbəsinin sakini**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### Türkiyənin “Kızılelma” pilotsuz qırıcısı ilk uçuşunu keçirib

Türkiyənin ilk reaktiv pilotsuz qırıcısı “Kızılelma” ilk real uçusunu keçirib. Ordu.az xəbər verir ki, bu barədə “Baykar” şirkətinin rəhbəri Səlcuq Bayraktar məlumat verib.

Bir müddətdir quruda sınaqları aparılan “Kızılelma” Çorlu Meydanından ilk uçuşunu uğurla başa vurub.

Qeyd edək ki, “Bayraktar Kızılelma” ilk dəfə avqustda Samsunda keçirilmiş texnologiya festivalında təqdim edilib. Pilotsuz



təyyarənin həm aerodroma, həm də kiçik gəmilərə enib-qalxması nəzərdə tutulur.

## Allah rəhmət eləsin

Daxili Qoşunların komandanlığı polkovnik Sədrəddin Xasayevə **anasının** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar şurası **istefada olan baş leytenant Eyvaz Səlimovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

Daxili Qoşunların Veteranlar şurası **istefada olan gizir Rasim Əbilovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

99713 saylı hərbi hissənin komandanlığı MAXE çavuş Oqtay Ağabalayevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
Redaktor: Anar Əhmədov

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonları: 560-22-63**

**Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**